**Nigar Roman qızı Hacıyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant.**
**E-mail: hajiyeva2021@inbox.ru**
**UOT: 338.012:338.246; JEL:E60;E69;G32.**

# Yeni şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və qeyri-neft sektorunun şaxələndirilməsi istiqamətləri

***Xülasə***

*Tədqiqatın məqsədi – müasir şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi problemlərinin tədqiqindən ibarətdir. Bununla bağlı olaraq rəqabət qabiliyyətinin mahiyyəti və prinsipləri araşdırılmışdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi imkanları baxılmışdır. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin şərhində "ənənəvi" və "innovativ" yanaşmalar arasındakı fərqlər müəyyənləşdirilmişdir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyini təmin edən amillər ümumiləşdirilmişdir. Azərbaycanda milli iqtisadiyyatın perspektiv sahələrinin imkanlarından istifadə edilməklə, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır. Tədqiqatın metodologiyası – bir qrup iqtisadi metodlardan – o, cümlədən elmi abstraksiya, analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmədən ibarətdir. Bunlarla bərabər, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri üzrə müxtəlif alim və tədqiqatçıların metodoloji yanaşmalarına diqqət yetirilmişdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – hazırkı şəraitdə məqalədə əks olunmuş nəticəyönlü müddəalardan milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində tədbirlər kompleksinin işlənməsində istifadə oluna bilər. Tədqiqatın nəticələri – milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması hədəflərinə adekvat olaraq yeni fəaliyyət mexanizmlərinin hazırlanması və istifadə olunması ilə əlaqəlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatın materialları bu istiqamətlərdə daha çox cərəyan edən iqtisadi problemlər və proseslər əsasında formalaşmışdır və bu baxımdan orijinaldır. Başlıca elmi yenilik isə müasir dövrdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi problemlərinə qlobal çağırışlara uyğun olaraq metodoloji yanaşmaların vacibliyinin əsaslandırılmasıdır. Qlobal problemlər kontekstində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması imkanları və perspektivləri baxılmışdır. Azərbaycanda milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üzrə tövsiyələr verilmiş və təkliflər irəli sürülmüşdür.*

***Açar sözləri:*** *Azərbayan, milli iqtisadiyyat, rəqbətqabiliyyətlilik, milli iqtisadiyyatın inkişaf problemləri, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik problemləri, qeyri-neft sektoru sahələri, iqtisadi artım mənbələri, iqtisadi inkişaf determinantları.*

## Giriş

Yeni şəraitdə dünya səviyyəsində, dünya iqtisadiyyatında köklü transformasiyalar gedir. Belə ki, qlobal problemlər səbəbindən və qlobal təhlükələrin artması ilə əlaqədar olaraq milli iqtisadiyyatın ənənəvi sütunları laxlamağa başlamış və transformasiyalar dərinləşməkdədir. Bu isə hazırkı dövrdə milli iqtisadiyyatlara yeni rəqabət yanaşmalarını ortaya qoyulmasını, yeni mexanizmlərin işləməsini təkmilləşdirir [1]. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün bir qrup məsələlər çox ciddi şəkildə nəzərə alınmalıdır: ilk növbədə, hər bir ölkə özünün iqtisadi inkişaf prioritetləri, iqtisadi inkişaf hədəfləri, obyektiv reallıqları baxımından, özünəməxsus öz iqtisadi inkişafını ehtiva edən milli prioritetlər və iqtisadi inkişaf hədəfləri müəyyənləşdirilməlidir; dünya ölkəsində baş verən proseslərin diqqətlə öyrənilməsi, izlənilməsi və bununla bağlı adekvat tədbirlərin görülməsi dövlətlərin iqtisadi siyasətlərində önəmli yer tutmalıdır; üzun müddət ərzində özünü kifayət qədər səmərəli göstərmiş iqtisadiyyat sahələrinin hazırkı dövrdə fəaliyyətinin adekvatlığı və

hansı səviyyədə səmərəli olub-olmaması məsələləri yenidən araşdırılmalı, qiymətləndirilməlidir; ölkədə mövcud resursların hərəkətə gətirilməsi, resurslardan qənaətlə istifadə olunması, ilk növbədə, ölkə iqtisadiyyatının inkişafına, yəni iqtisadi artımına və yeni maliyyə mənbələrinin yaranmasına imkan verən sahələrin inkişafına xüsusi önəm verilməli, məqsədli dövlət proqramları işlənilməli, tədbirlər planı hazırlanmalı və kompleks şəkildə həyata keçirilməlidir; ölkənin təbii resurslarının və digər imkanlarının istifadə olunmamış ehtiyatlarının təsərrüfat dövriyyəsinə gətirilməsi, maliyyə dövriyyəsinə cəlb olunması məsələlərinə xüsusi diqqət yetirilməlidir; ölkədə iqtisadiyyatın şaxələndirilməsi və onun şəffaflığının təmin olunması tədbirləri görülməlidir; iqtisadiyyatda kölgə iqtisadiyyatının həcmi kifayət qədər azaldılmalı, korrupsiyaya qarşı önəmli mübarizə aparılmalı, korrupsiya hallarına son qoyulmalıdır; ölkədə sağlam rəqabət mühitinin təmin edilməsi kifayət qədər strateji məsələ hesab olunur, biznes və sahibkarlıq subyektlərinin daha sağlam rəqabət mühitində çalışması üçün köklü tədbirlər görülməli, inhisarçılıq meyillərinin qarşısı qətiyyətlə alınmalı, rüşvətxorluq hallarına son qoyulmalıdır; ölkə iqtisadiyyatının regional və beynəlxalq səviyyədə inteqrativ proseslərinin genişləndirilməsi və daha səmərəli və məhsuldar qarşılıqlı, ikitərəfli, çoxtərəfli ölkələrlə iqtisadi əlaqələrin nəzərə alınması vacibdir; ölkə iqtisadiyyatında mövcud resurslardan istifadənin hazırkı dövrün tələblərinə uyğun, qənaət rejimində istifadə olunması, xüsusilə ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı strateji tədbirlər hazırlanmalı və həyata keçirilməlidir; ölkə əhalisinin həyat şəratinin yaxşılaşdırılması və yüksəldilməsi üçün zəruri tədbirlərin görülməsi, əhalinin sosial təbəqələrininin vəziyyətinin nəzərə alınması və ümumilikdə, ölkədə sosial-iqtisadi inkişafın tarazlı şəkildə inkişaf etdirilməsinin diqqət mərkəzində saxlanılması təmin edilməlidir. Qeyd edək ki, bu göstərilən amillər və hədəflər, əlbəttə, çoxlu sayda tədbirlərin görülməsini, milli iqtisadiyyatın strukturunun şaxələndirilməsini, onun rəqabət qabiliyyətinin artırılması, inkişaf determinantlarının daha düzgün istiqamətləndirilməsi kimi mühüm tədbirlərin tənzimlənməsini tələb edir. Buna görə də, müasir dövrdə dövlətin iqtisadi siyasətində rəqabətqabiliyyətlik determinantlarının və prinsiplərinin kompleks şəkildə baxılması və nəzərə alınması təmin olunmalıdır [2]. Yeni çağırışlar şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün hər bir ölkənin milli maraqlar çərçivəsində konseptual yanaşmaları olmalı və hədəflər əks etdirilməlidir [3]. Digər tərəfdən, milli iqtisadiyyatın resurslarından istifadənin modelləşdirilməsi və dünyada baş verən qlobal transformasiyalara adekvat olan rəqabətli milli iqtisadi inkişaf modeli formalaşdırılmalıdır [4]. Qlobal təsirlər səbəbindən, hazırda fəaliyyətdə olan milli iqtisadi inkişaf mexanizmləri və alətləri yeni çağırışları qarşılamaqda çətinlik çəkirlər. Buna görə də qlobal təhdidlər kontekstində milli iqtisadiyyatın daha güclü immunitetə malik mexanizmləri işlənməlidir [5]. Eyni zamanda, milli iqtisadiyyatın rəqabər qabiliyyətinin obyektiv reallıqlara uyğun olaraq təhlil olunması və qiymətləndirilməsi metodikasının müəyyənləşdirilməsinə zərurət vardır [6].

**Yeni çağırışlar şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması problemləri**

Son onilliklərdə bir-birinin ardınca qlobal problemlər baş vermişdir. 2008-ci ilin sonlarından başlayaraq, son onilliklərin ən güclü qlobal problemlərindən biri özünü maliyyə sahəsində göstərmişdir. Maliyyə köpüklərinin yaranmasından ortaya çıxan böhran dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrinin iqtisadiyyatını çökdürmüşdür və bunun nəticəsində dünya iqtisadiyyatında və beynəlxalq maliyyə kanallarında investisiya və maliyyə axınlarının hərəkətində məhdudiyyətlər yaranmışdır. Bundan əlavə, dünya iqtisadiyyatının uzun illər ərzində səmərəli hesab olunan iqtisadi mexanizmləri və praktikada istifadə olunan alətləri, şübhəsiz, deformasiyalara uğramışdır və bu baxımdan əsas vəzifələrdən biri müasir dövrün tələblərinə, müasir çağırışlara uyğun şəkildə yeni mexanizmlərin işlənib hazırlanması və tətbiqi vacib bir zərurət kimi ortaya çıxmışdır. Dünya maliyyə böhranının fəsadları səngiməmiş və aradan qalxmamış başqa bir qlobal böhran özünü büruzə vermişdir və bu

böhran yüz minlərlə insanların həyatına son qoymaqla bərabər, həm də milli iqtisadiyyatları çökdürmüşdür. Dünya səviyyəsində iqtisadi tənəzzül baş vermişdir, əksər iqtisadiyyat sahələrinin fəaliyyəti dayanmış və ya əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır. Təmas daha çox olan xidmət sahələri isə, demək olar ki, qapadılmışdır. Bu dünya ölkələrinin iqtisadiyyat sahələrinə mənfi təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, bu mənfi fəsadlar Azərbaycanda da ciddi şəkildə özünü göstərmişdir. Covid - 19 koronavirus pandemiyasının mənfi təsirləri hələ də aradan qaldırılmaqdadır və hesab edirik ki, bu məsələ uzun illər ərzində davam edəcəkdir. Birincisi, Covid - 19 pandemiyası hələ başa çatmayıb, digər tərəfdən isə son illərdə itirilmiş iqtisadi mənbələrin bərpası və iqtisadi tempin yaxşılaşdırılması, əlavə maliyyə və təbii resursların tələb olunması müəyyən vaxt tələb edir. Buna görə də, hələ də dünya iqtisadiyyatının bərpası proseslərinin intensivləşməsindən danışmaq qeyri-mümkündür. Qeyd etmək lazımdır ki, bir çox beynəlxalq təşkilatlar və maliyyə institutları, nüfuzlu iqtisadi qurumlar yaxın illərdə dünya iqtisadiyyatında çox güclü iqtisadi tənəzzülün, iqtisadi resessiyanın baş verməsini proqnozlaşdırırlar. Bu, əlbəttə, qorxunc bir proqnozdur, dünya hələ də bu məsələdə çox ciddi əziyyət çəkir. Dünyanın yüzə yaxın ölkəsində hazırda çox ciddi ərzaq problemləri, xüsusilə ərzaq buğdası ilə təminat problemləri yaranmışdır və regionlarda dünyada baş verən vətəndaş konfliktləri, o cümlədən geniş həcmili Rusiya-Ukrayna müharibəsi və qarşıdurması nəticəsində ərzaq buğdasının ixracında və tədarükündə ciddi problemlər yaranmışdır. Ümumiyyətlə, ərzaq məhsullarının istehsalında ciddi məsələlər ortaya çıxmışdır. İqlim dəyişiklikləri, quraqlıq, ölkələrdə bu sahədə olan sabitlik, ərzaq məhsullarının istehsalında özünü göstərməyə başlamışdı.

Azərbaycanda da milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində davamlı tədbirlər diqqət çəkir. Xüsusilə, qeyri-neft sektoru sahələrinin inkişafına prioritetlik verilməkdədir [7]. Bu məsələlərdə rəqabət amili, möhkəm rəqabət qabiliyyəti və rəqabət üstünlüklərindən səmərəli istifadə olunması xüsusi diqqət mərkəzindədir [8] Bunlarla bərabər, qeyri-neft sektorunun inkişafı ilə bağlı, yeni yanaşmalar və fəaliyyət prinsipləri ön plana çıxamqdadır. Məqsəd bu sahələrdə mövcud resurslardan səmərəli istifadənin təmin olunması və rəqabər qabiliyyətinin yüksəldilməsidir [9]. Eyni zamanda, milli iqtisadiyyatın və xüsusilə onun ixracyönlü sənaye sahələrinin beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin yüksəldilməsinə daha çox önəm verilməkdədir. Bunun üçün yüksək texnologiyalar əsaslı müasir sənaye müəssisələri istismara verilməkdədir [10]. Başqa bir problem, hazırkı qlobal təhdidlərə adekvat olaraq rəqabət strategiyasının işlənməsi və tətbiqi ilə bağlıdır [11]. Bunlarla yanaşı, milli iqtisadiyyatın müxtəlif perspektiv sahəsində iqtisadi artım və innovativ metodlardan istifadəyə üstünlük verilməsi ön plana çıxmışdır [12]. Digər bir amil isə, intellektual resursları özündə cəmləşdirən elmtutumlu sənaye sahələrinin inkişaf etdirilməsi və rəqabət qabiliyyətinin yüksəldilməsi ilə bağlıdır [13]. Cədvəl 1-də milli iqtisadiyyatın rəqabət qabiliyyətinin şərhində "ənənəvi" və "innovativ" yanaşmalar arasındakı fərqlər təhlil olunmuş və ümumiləşdirilmişdir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin müəyyən edilməsinə müasir yanaşmanın ən mühüm fərqi onu təmin etmək üçün innovativ amillərə diqqət yetirilməsidir. Eyni zamanda, qeyd etmək lazımdır ki, innovasiya fəaliyyətinin səmərəliliyi daha çox innovasiya prosesində iştirak edən təsərrüfat subyektləri: elmi təşkilatlar, ali təhsil müəssisələri, sənaye müəssisələri, innovasiya infrastrukturunun obyektləri və subyektləri arasında sıx əlaqələrin olması ilə müəyyən edilir.

**Cədvəl 1.**

**Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin şərhində "ənənəvi" və "innovativ" yanaşmalar arasındakı fərqlər**

| Xüsusiyyətləri | "Ənənəvi" yanaşma | "İnnovativ" yanaşma |
|---|---|---|
| **Fəaliyyət göstəriciləri** | Ölkənin dünya bazarlarında payının artması, ölkənin investisiya cəlbediciliyinin və əmək məhsuldarlığının yüksək səviyyəsi | İqtisadi artımın intensiv tempini və əhalinin rifahının yüksəldilməsini təmin edən yüksək innovativ fəaliyyət səviyyəsi |
| **Əsas amillər** | Amillər: işçi qüvvəsi, təbii ehtiyatlar, kapital | Elmi tədqiqat, yaradıcı fəaliyyət, innovasiyaları həyata keçirmək bacarığı |
| **Təhlükəsizlik əsası** | Fərdi sahibkarlıq subyektlərinin səmərəli fəaliyyəti | Təsərrüfat subyektləri arasında sıx əlaqələrə görə sinerji effektin yaranması (əsasən ölkənin innovasiya sisteminin formalaşması hesabına) |
| **Elmin və innovasiyanın rolu** | İqtisadi artımın ekzogen amili | İqtisadi artımın endogen amili |
| **Baxış müddəti** | Qısamüddətli, statik yanaşma | Uzunmüddətli, dinamik yanaşma |

Sinergik effekt əsasən milli innovasiya sisteminin formalaşdırılması yolu ilə yaradılır. Odur ki, innovasiya fəallığının səviyyəsinin və onu şərtləndirən amillərin monitorinqi müasir mərhələdə ölkənin rəqabət qabiliyyətinin öyrənilməsində mühüm istiqamətə çevrilməlidir. Ənənəvi və innovativ yanaşmalara uyğun milli iqtisadiyyatın rəqabətqabiliyyətinə təsir göstərən amillər qrupunu da müəyyən edə bilərik (şəkil 1).

**Şəkil 1.**

**Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini təmin edən amillər**




Şəkil 1-dən yanaşsaq, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin müəyyənləşdirilməsinə innovativ yanaşma onun bir sıra amillərini təklif etməyə imkan verir. Eyni zamanda, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik amilləri dedikdə, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsini müəyyən edən iqtisadi proseslər və hadisələr, habelə iqtisadi şərtlər başa düşülməlidir. Ənənəvi olaraq, şirkətləri ucuz xammallara çıxış əldə etdikdə dövlətlər rəqabətədavamlı olurlar. Lakin, XX əsrin ikinci yarısından etibarən istehsalın strukturunda daha çox bilik tutumlu sənayelər üstünlük təşkil etməyə başladı, yəni milli rəqabət qabiliyyəti elmin, texnikanın inkişafından, yüksək ixtisaslı əmək ehtiyatlarının mövcudluğundan daha çox asılı oldu. Buna görə də rəqabət qabiliyyətinin ənənəvi amilləri (məsələn, təbii ehtiyatlar, işçi qüvvəsi, kapitalın mövcudluğu və onun cəlb edilməsi

imkanları) ikinci plana keçib və innovasiyalarla yanaşı həm də sosial, təşkilati, marketinq və s. həlledici amillərə çevrilib.

**Azərbaycanda milli iqtisadiyyatın şaxələndirilməsinin və rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətləri**

Azərbaycanda milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və diversifikasiyalaşdırılması prosesləri kifayət qədər intensiv fazaya keçmişdir. Eyni zamanda, Azərbaycanda diversifikasiya prosesləri sahibkarlığın inkişafına müxtəlif cür təsir göstərir. Belə təsir forması özünü yeni sahibkarlıq strukturlarının yaradılmasında özünü göstərir. Azərbaycanda sahibkarlıq subyektlərinin sayını təhlil etmək üçün cədvəl 2-dəki məlumatlardan istifadə edək.

**Cədvəl 2.**

**Azərbaycanda fəaliyyət göstərən sahibkarlıq subyektləri**

| | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | mikro | kiçik | orta | Cəmi | mikro | kiçik | orta |
| **Fəaliyyətdə olan** | 271304 | 262622 | 5956 | 2726 | 316370 | 307717 | 5943 | 2710 |
| **Yeni yaradılmış** | 103949 | 103756 | 161 | 32 | 167475 | 167271 | 161 | 43 |
| **Ləğv edilmiş** | 30483 | 30457 | 17 | 9 | 22572 | 22545 | 19 | 8 |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəl 2-nin məlumatlarından görünür ki, Azərbaycanda 2020-ci ildə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayı 2019-cu ilə nisbətən artmışdır. Bu artım 16,6% təşkil etmişdir. Lakin kiçik sahibkarlıq subyektlərinin sayı 0,2%, orta sahibkalıq subyektlərinin sayı isə 0,6% azalmışdır. Deməli, artım mikrosahibkarlıq subyektləri hesabına olmuşdur (17,2%). Yeni yaradılmış sahibkarlıq subyektlərinin sayında 61,1% artım, ləğv edilmiş sahibkarlıq subyektlərinin sayında isə 35,0% azalma müşahidə olunmuşdur [14]. Şəkil 2-də isə Azərbaycanda milli iqtisadiyyatın strukturunda və ərzaq təhlükəsizliyinin təmin olunmasında xüsusi əhəmiyyət kəsb edən kənd təsərrüfatının ümumi məhsul buraxılışının bitkiçilik və heyvandarlıq sahələri üzrə müqayisəli dinamikası verilmişdir və buradan görmək mümkündür ki, son illərdə Covid – 19 pandemiyasının təsirinə baxmayaraq artım tempi az da olsa saxlanılmışdır.

**Şəkil 2.**

**Kənd təsərrüfatının ümumi məhsulu (milyon manat)**




Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunub.

Şəkil 3-də isə sxem vasitəsilə qeyri-neft sektorunun diversifikasiyası üçün istiqamətlərin seçilməsi alqoritmini təklif edə bilərik.

**Şəkil 3.**

**Qeyri-neft sektorunun diversifikasiyası üçün istiqamətlərin seçilməsi alqoritmi**




Azərbaycanda qeyri-neft sektorunun diversifikasiyası üçün istiqamətlərin seçilməsi alqoritminin təhlili onun keyfiyyət xüsusiyyətlərini, nəticələrin qiymətləndirilməsi isə dinamikasını müəyyən etməyə imkan verir. Son nəticədə diversifikasiyanın təsiri aşağıdakı müsbət dəyişikliklərlə ifadə olunur: iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması; insan kapitalının keyfiyyətinin yüksəldilməsi və effektiv dövlət idarəçiliyi sisteminin yaradılması. Orta və uzunmüddətli perspektivdə diversifikasiyanın həyata keçirilməsi mexanizmləri bir-birindən fərqlənir. Birinci halda, onlar mövcud qeyri-neft sektorunun inkişafına nəzərəçarpacaq stimullaşdırıcı təsir göstərməyə qadirdirlər və bunlara daxildir: təbii rentanın götürülməsi üçün vergi və gömrük mexanizmlərinin təkmilləşdirilməsi; ixraca dəstək sisteminin yaradılması; kənd təsərrüfatı istehsalının inkişafı və kiçik və orta biznesə dəstək. Uzunmüddətli perspektivdə bu: müəssisənin maliyyələşdirilməsinə dəstək; mülki və hərbi məhsulların istehsalında qarşılıqlı texnologiya axınının stimullaşdırılması; xidmət sektorunun inkişafı və onun ixracına dəstək və informasiya infrastrukturunun və telekommunikasiyanın inkişafı. Qeyd edək ki, müasir şəraitdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması problemləri ölkəmiz üçün də kifayət qədər xarakterikdir və onların nəzərə alınması vacibdir. Təsadüfü deyildir, uzun illər ərzində - 20-30 ildir ki, Milli Məclisdə zaman-zaman “Rəqabət Məcəlləsi”nin hazırlanması üçün işlər görülmüş, müəyyən cəhdlər və təşəbbüslər göstərilmişdir. Təəssüf ki, müəyyən maraqları özündə ehtiva edən məsələlər səbəbindən həmin istiqamətdə ümumi konsensusa gəlmək mümkün olmamışdır və bu vaxta qədər “Rəqabət Məcəlləsi” qəbul edilməmişdir. “Rəqabət Məcəlləsi haqqında” Qanun isə, demək olar ki, işləmir və təsadüfi deyildir ki, ölkəmizdə müxtəlif sahələrdə inhisarçılıq meyilləri,

iqtisadiyyatın müxtəlif sahələrində, xüsusilə kənd təsərrüfatı, aqrar sahədə, tikinti, yüngül yeyinti sahəsində, metallurgiya, kimya və s. sahələrdə özünü büruzə verən və kifayət qədər önəmli paya malik olan inhisarçılıq subyektləri fəaliyyət göstərirlər. Bunlar isə bazar iqtisadiyyatı mexanizmlərinin tətbiqini ləngidir, bazar subyektlərinin sayının artmasına və sağlam rəqabət mühitinin formalaşmasına imkan vermir, ölkədə rəqabətqabiliyyətinin inkişafına əngəl törədir və bu da təəssüf ki, iqtisadiyyatımıza mənfi təsir göstərən hallar kimi qiymətləndirilməlidir. Digər tərəfdən, hazırda bu istiqamətdə dövlətin siyasətində çox mühüm dəyişikliklər hiss olunmalıdır, dövlət başçısı dəfələrlə bu məsələlərə öz münasibətini bildirmişdir. Məsələn, 2022-ci ilin 6 ayının yekunlarında ölkə Prezidenti İlham Əliyev tərəfindən iqtisadiyyatımızın inkişafı ilə bağlı məsələlərdə inhisarçılıq hallarına, kölgə iqtisadiyyatına və digər bu kimi məsələlərə son qoyulması istiqamətində çox mühüm mesajlar və çağırışlar edilmişdir. Dövlət başçısı bunları bildirməklə müəyyən mənada cəmiyyətdə və dövlətdə bu məsələlərin ciddi şəkildə baxılmasının vaxtı çatdığını bir daha diqqətə çatdırmışdır.

Azərbaycanda iqtisadi inkişaf determinantlarının yeni istiqamətləri və yeni mənbələri formalaşmışdır. Böyük Qarabağ Zəfərindən sonra iqtisadi rayonlaşma üzrə dövlətin atdığı yeni addımlardan sonra Azərbaycanda iqtisadi inkişafın regional səviyyəsinə yeni baxış formalaşmışdır və daha optimal konseptual vəzifələr ortaya qoyulmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının təbii və iqtisadi potensialından səmərəli istifadə etməklə, çox önəmli iqtisadi artım mənbələrinin, əlavə dəyər, istehsal və digər bu baxımdan maliyyə mənbələrinin formalaşdırılmasına nail olmaqla, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına əlavə töhfələr vermək imkanları vardır. Digər tərəfdən, bu iki iqtisadi rayonda əsas prioritet istiqamətlər kimi yüksək texnologiyaların tətbiqi, ağıllı texnologiyalar əsasında kənd təsərrüfatı, aqrar sahədə müəssisələrin yaradılması, sənaye müəssisələrinin və komplekslərinin yaradılması, intellektual resurslardan və yeraltı-yerüstü mənbələrdən səmərəli istifadə edilməsi prioritetləri və vəzifələri müəyyənləşdirilmişdir.

**Nəticə**

Bütün bu məsələlərin sistemli şəkildə baxılması və həll edilməsi Azərbaycanda iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına əlavə impulslar verəcək və yaxın perspektivdə ölkəmizin iqtisadiyyatı qlobal səviyyədə baş verən böhranların mənfi fəsadına qarşı özünün çox yüksək immunitetini formalaşdırmaq imkanı əldə edəcəkdir: ayrı-ayrı məmurların, vəzifəli şəxslərin iqtisadi fəaliyyət subyektlərinə, sahibkarlıq subyektlərinə müdaxiləsi və digər sahələrdə özbaşınalıqlara yol verməsi milli iqtisadiyyatımızın rəqabət qabiliyyətinin artırılmasına mane olan hallardandır. Bu kimi məsələlərin həll edilməsi və yaxın perspektivdə ölkəmizdə iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması ilə bağlı önəmli tədbirlərin görülməsi zəruridir; dövlətimizin iqtisadi siyasətinin prioritetlərindən biri ölkədə yaradılmış əlverişli iqtisadi fəaliyyət şəraitinin daha da yaxşılaşdırılması və sahibkarlığın inkişafına yönəlmiş proteksionist tədbirlərin təkmilləşdirilməsinin təmin olunmasıdır; makroiqtisadi sabitliyin qorunması və sosialyönümlü siyasətin davamlılığının təmin edilməsi, iqtisadiyyatın davamlı şaxələndirilməsi, milli iqtisadiyyatın rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi tədbirlərinə ehtiyac vardır; sahibkarlıq fəaliyyəti sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadiyyatın dövlət tənzimlənməsinin səmərəliliyinin artırılması üzrə işlərin daha intensiv davam etdirilməsi tələb olunur; dünya təcrübəsində uğurla istifadə edilən təşkilati strukturların, məsələn, sənaye şəhərciklərinin, biznes inkubatorların yaradılması, sahibkarların iştirakı ilə innovativ potensialın inkişafı, müasir texnologiyaların və idarəetmə üsullarının geniş tətbiqi yolu ilə yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi tədbirləri intensivləşdirilməlidir; sahibkarlıq fəaliyyətinin konsaltinq və informasiya təminatının və kadr

hazırlığı sisteminin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, o cümlədən regionlarda sahibkarlıq fəaliyyətinə başlamaq istəyən KOS subyektlərinin peşə hazırlığına yönəlmiş treninqlərin təşkili və digər tədbirlərlə zərurət qalmaqdadır və s.

**Ədəbiyyat**

1. Зеленкевич, МЛ. Теория конкурентоспособности национальной экономики как основа развития мировой торговли. https://e-edu.by/main/departments/finance/staff/zelenkevich/publications/10.pdf.
2. Малявина, И.Ю. Детерминанты конкурентоспособности и их использование в экономике России. // Вестник Нижегородского университета им. Н.И. Лобачевского, – 2010. № 3 (2), – с. 538-543.
3. Гармашова, Е.П. Основные концепции конкурентоспособности национальной экономики // Вестник СурГУ. – 2019. Вып. 1 (23).
4. Завьялова, Т.А. Понятие конкурентоспособности национальной экономики // Креативная экономика. – 2010, №2. – с.40-48.
5. Лоскутова, М.В. Конкурентоспособность национальной экономики в условиях глобализации // Вестник ТГУ. – 2009. №2. – с.295-300.
6. Мухамедиев, Б.; Ильясова, Ж. Методы оценки конкурентоспособности национальной экономики. Вестник КазНУ. Серия Экономическая, 2018. с. 203-211.
7. Abbasov, İ.M., Əliyev, T.N. Qeyri-neft sənayesinin iqtisadiyyatı. Dərslik. Bakı, – 2018, – 267 s.
8. Rəqabətli müəssisələr. Möhkəm rəqabət qabiliyyəti. Rəqabət üstünlüklərinin müqayisəsi. https://soap-sale.ru/az/selskoe-hozyajjstvo/konkurentosposobnye-predpriyatiya-konkurentosposobnost-firmy-sopostavlenie/.
9. Yusifov, C.R. Qeyri-neft sektorunun inkişaf etdirilməsi problemlərinə nəzəri-metodoloji yanaşmalar və onların təhlili // Azərbaycanin vergi xəbərləri. №12/2011. İqtisadi təhlükəsizlik. – s. 121-130.
10. Bayramov, E. Beynəlxalq rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilmiş milli sənaye siyasətinin prioritet istiqamətləri // Azərbaycanin vergi xəbərləri. – 2010. №09.
11. Sadıqova, S. Rəqabət strategiyasi və onun təhlili // İpək yolu, – 2017. No.3, – s. 114-125.
12. Abbaszadə, M.T. İqtisadi artım və innovativ metodlardan istifadə yolları İqtisadiyyat və idarəetmə // Azərbaycan Ali Texniki Məktəblərinin Xəbərləri. Cild 22, № 4 (2020), – s. 80-85.
13. Əliyev, R.Ç. Elmtutumlu sənaye istehsalinin rəqabət qabiliyyətinin yüksəldilməsi. İ.e.f.d. dissertasiyasının avt-tı. Bakı, 2018. – 26 s.
14. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. – Bakı: – 2021, – 775 s.

***Нигяр Роман кызы Гаджиева***

***Пути повышения конкурентоспособности национальной экономики и диверсификации ненефтяного сектора в новых условиях***

***Резюме***

*Цель исследования – изучение проблем повышения конкурентоспособности национальной экономики в современных условиях. С этой целью были исследованы сущность и принципы конкурентоспособности. Рассмотрены возможности повышения конкурентоспособности национальной экономики. Даны различия между «традиционным» и «инновационным» подходами к конкурентоспособности национальной экономики. Обобщены факторы, обеспечивающие конкурентоспособность национальной экономики. Обобщены рекомендации и предложения по повышению конкурентоспособности национальной экономики за счет использования возможностей перспективных направлений национальной экономики Азербайджана. Методология исследования – состоит из группы экономических методов, включающих научную абстракцию, анализ, синтез, сравнительный анализ и обобщение. Наряду с этим внимание было уделено методологическим подходам различных ученых и исследователей по вопросам повышения конкурентоспособности национальной экономики. Практическая значимость исследования – отраженные в статье положения об ориентированности на результат могут быть использованы при разработке комплекса*

*мероприятий по повышению конкурентоспособности национальной экономики в современных условиях. Результаты исследования – заключается в разработке и использовании новых механизмов действия в соответствии с целями повышения конкурентоспособности национальной экономики. Оригинальность и научная новизна исследования – материалы исследования сформировались на основе экономических проблем и процессов, которые распространены в данных областях. Главная научная новизна - обоснование важности методологических подходов к проблемам повышения конкурентоспособности национальной экономики в соответствии с глобальными вызовами современности. Возможности и перспективы повышения конкурентоспособности национальной экономики рассмотрены в контексте глобальных проблем. Даны рекомендации и предложения по повышению конкурентоспособности национальной экономики Азербайджана.*

***Ключевые слова:*** *Азербайджан, национальная экономика, конкурентоспособность, проблемы развития национальной экономики, проблемы конкурентоспособности национальной экономики, ненефтяные отрасли, источники экономического роста, детерминанты экономического развития.*

***Nigar Roman Hajiyeva***

***Summary***

***Ways to increase the competitiveness of the national economy and diversify the non-oil sector in the new conditions***

*Research purpose - is to study the problems of increasing the competitiveness of the national economy in the present conditions. In this regard, the essence and principles of competitiveness were investigated. The differences between "traditional" and "innovative" approaches were defined while interpreting the competitiveness of the national economy. The possibilities of increasing the competitiveness of the national economy were considered. Factors ensuring the competitiveness of the national economy were summarized. Recommendation and proposals were made on increasing the competitiveness of the national economy by using the opportunities of the perspective areas of the national economy in Azerbaijan. Research methodology – consists of a group of economic methods, including scientific abstraction, analysis, synthesis, comparative analysis and generalization. In addition, the methodological approaches of various scientists and researchers on the issues of increasing the competitiveness of the national economy were reviewed. The practical importance of the research – in the present conditions, the result-oriented findings reflected in the article can be used in the development of a complex measures in the direction of increasing the competitiveness of the national economy. Research results –are related to the development and use of new mechanisms of action in accordance with the goals of increasing the competitiveness of the national economy. Originality and scientific novelty of the research – the materials of the research can be considered original as they are formed on the basis of economic problems and processes that are more prevalent in these areas. The main scientific originality is the justification of the importance of methodological approaches to the problems of increasing the competitiveness of the national economy in accordance with global challenges in contemporary times. Opportunities and perspectives of increasing the competitiveness of the national economy were considered in the context of global problems. Recommendations and suggestions were made on increasing the competitiveness of the national economy in Azerbaijan.*

***Keywords:*** *Azerbaijan, national economy, competitiveness, development problems of national economy, competitiveness problems of national economy, non-oil sector, sources of economic growth, determinants of economic development.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 04.07.2022.***
***Çapa qəbul olunub: 11.07.2022.***